# GÖYGÖL MİLLİ PARKININ GÖLLƏRİ

**Səidə Qəhrəmanova, Elşad Məmmədov**

*Azərbaycan Texnologiya Universiteti, Mingəçevir*
*Saida.b.83@mail.ru, Elshad1952@mail.ru*

Göygöl bənd gölü olmaqla XII əsrin əvvəlində, 1139-cu ildə fəlakətli Gəncə zəlzələsi zamanı yaranmışdır. Tale sanki ikili oyun oynayaraq, bir tərəfdə Gəncəni viran qoymuş, digər tərəfdə başı qarlı, uca dağlar uçub dağılaraq füsunkar Göygölü yaratmışdır. Eyni bir təbii fəlakət həm dağıtmış, həm də Göygöl kimi möcüzəni yaratmışdır. O vaxt Gəncə zəlzələsinin gücü 11 bala çatmışdır.

Bəzi tədqiqatçılar Kəpəz dağının ətəklərində iki valın mövcudluğunu müəyyən etmişlər. Bu torpaq sədlərini dağ süxurlarının töküntüləri təşkil edir. Vallardan biri öz evalyusiyasına görə digərindən qədimdir.

Göygölün əmələ gəlməsi tarixi onun formasında öz əksini tapmışdır. Belə ki, dağ çayının ensiz dərəsini dolduran göl, öz forması ilə bunu bir daha təsdiq edir. Göygölün faunası planktonun yaxşı inkişafı ilə xarakterizə olunur. Planktonun yayılması suyun səthindən 10 m dərinliyədək müşahidə olunur, 30 m-dən aşağı dərinlikdə isə gölün ölü zonası vardır.

Göygöl və onun sputnikləri olan kiçik göllər haqqında aşağıda geniş məlumat verilmişdir.

**Maral gölü** – dəniz səviyyəsindən 1866 m hündürlükdə olmaqla yuxarı Ağsu dərəsində, Göygöldən yuxarıda, 2,5 km-də yerləşir. Maral gölü Daş Arxac yerinin məhəlli yarğanının, Kəpəzin şərq yamacından yuxarı Ağsu dərəsi boyunca enən buzlaq morenası ilə bağlanması yolu ilə əmələ gəlmişdir. Göldən şimala tərəf, dərəyə köndələn son morenanın daş səddi çox yaxşı saxlanılmışdır. Göl şimal-qərb və cənub-qərb hissələrində kvars profilləri ilə döşənmiş yerli sahillərin üstündə durur və yalnız şimal-şərq hissəsində buzlaq bəndi ilə qabağı kəsilir. Gölün sahəsi 40 ha-dır, ən dərin yeri 50 m-dir. Maral gölün yaxınlığındakı zirvədə kifayət qədər dərin və geniş yarğan izlənir. Bu sübut edir ki, daha qədim dövrlərdə gölün səviyyəsi xeyli hündürlükdə olmuşdur. Maral gölü əsas etibarilə Kəpəz dağının şimal-qərb döşü ilə axan yuxarı Ağsu çayının mənbəyi və hissəvi olaraq leysan axarlarından və yağış sularından qidalanır. Maral gölü Göygöl üçün əla duruldücu nohur rolunu oynayır.

**Karov gölləri** – bu göllər dağ gölləri tipinə aid olub, dağ yamaclarında kasaya oxşar təbii çuxurlarda yerləşir və sıldırımlı dik sahillərlə əhatə olunur. Karov tipli göllərə Çobanbatan göl, Zəli göl və Şamlı göl aiddir.

**Çobanbatan** göl dəniz səthindən 1671 m hündürlükdə Göygöldən 1,5 km aralı Kəpəz su dərəsinin sağ sahilində yerləşir. Göl qədim zamanlarda axar olmuş və səthi daha yüksək səviyyədə yerləşmişdir. Hazırda gölün səviyyəsi enmişdir və leysan sellərinin gətirdiyi çöküntülərdən dolayı xeyli lillənmişdir. Gölün dibi əhəng karbonatı ilə inkrustasiya olunmuşdur. Göl qurumaq mərhələsini yaşayır.

**Zəligöl** – dəniz səthindən 1622 m hündürlükdə Ağa Kar dağının ətəklərində yerləşir. Gölün tərkibinə iki kiçik göl daxildir. Gölün sahilində çeşmə və bulaqların olmamasına baxmayaraq göl səthindən ağsuya tərəf axar aşkar edilir.

**Şamlıgöl –** Çobanbatan göl ilə eyni səviyyədə dəniz səthindən 1662 m yüksəklikdə yerləşir. Tipik karov gölü olmaqla Orta – yal silsiləsinin sıldırımlı ətəyində, şam meşəsinin ortasında yerləşir. Göl çox dərin deyil, dibi əhəng karbonatı ilə inkrustasiya edilmişdir. Şamlıgöl dərin çalada yerləşərək, göl aynasının tünd yaşıl çalarlı şəffaf suyunun fonu ilə fantastik mənzərə təsiri bağışlayır.